Scientific News of Azerbaijan State Academy of Physical Education and Sport
Sport Science Journal vol. 4, № 1, 2022, pp. 62-65.

# ŞAGİRDLƏRİN SOSİALLAŞMASI ÜZRƏ İŞİN İSTİQAMƏTLƏRİ

**prof. Y.M. Babanlı**

*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
yusif.babanlı@sport.edu.az

**Nəşr tarixi**
Qəbul edilib: 12 yanvar 2022
Dərc olunub: 9 mart 2022
© 2022 ADBTİA Bütün hüquqlar qorunur

**Annotasiya.** Məqalə şagirdlərin sosiallaşmasının xüsusiyyətlərindən bəhs olunur. Sosiallaşma prosesində məktəblilər kənar təcrübəni mənimsəyir və öz təcrübəsinə əlavə edir. Şagird sosial təcrübəsinin bir hissəsini məktəbdə, sinifdə və müəllimlərlə ünsiyyətdə əldə edir. Sosiallaşmanı müsbət bir proses olaraq o zaman qəbul etmək olar ki, şagird əməkdaşlıq etdiyi sosial institutlardan heç bir gərginlik olmadan ayrılır. Sosiallaşma prosesinin qənaətbəxş olduğunu yalnız onda demək olar ki, məktəbli tərəfindən məktəbdən kənar və sinif normativləri davranışına əsas kimi qəbul olunsun.

**Açar sözlər:** *şagird, təhsil, məktəb, sosial institutlar, ailə, şəxsiyyət, cəmiyyət, sosiallaşma, sosial rol, tərbiyə, münasibət, psixoloji yanaşma.*

İnsan – sosial orqanizmdir. Yarandığı gündən o, sosial əlaqələrə daxil olur, həmin əlaqələr prosesində müəyyən sosial təcrübəyə yiyələnir və bu təcrübə insanın bölünməz hissəsinə çevrilərək bütün həyatını əhatə edir. Məktəblilərin sosiallaşması isə onun sosial təcrübənin əldə etməsi və geniş əhatəli ictimai məktəb münasibətlərinə daxil olunması ilə onu əhatə edən cəmiyyətdə müxtəlif əlaqələrinin genişlənməsi ilə bağlıdır. Ümumiyyətlə, sosiallaşma anlayışının məzmunu psixoloji-pedaqoji ədəbiyyatda birmənalı müəyyən edilməmişdir. Bir sıra nəzəriyyələrə əsasən (Qolovanova N.F.) sosiallaşma - mədəni irsin ötürülməsi, mədəniyyətə yiyələnmək, sosial dəyərlərə, normalara, davranış nümunələrinə yiyələnmək kimi qeyd edilir. Burada sosiallaşma, mədəni təsirlərin avtomatik olaraq insana keçməsidir, yəni insan bu mərhələdə mədəniyyətin passiv istehlakçısı kimi çıxış edir. Digər nəzəriyyələrə əsasən, (Pariqin D.B.) sosiallaşma – insanın şəxsiyyətə çevrilməsini, fərdin şəxsən sosial mühitə daxil olmasını, sosial münasibət, sosial qavrama nəzərdə tutan praktik fəaliyyətin vərdişlərə yiyələnməsini, əhatədə olan dünyanın fəal dəyişməsini, fərdin şəxsiyyətinin keyfiyyətli dəyişdirilməsini, onun hərtərəfli və harmonik inkişafını nəzərdə tutan digər nəzəriyyədir.

Sosiallaşmaya üçüncü yanaşma isə psixoloji yanaşma, (Kotova İ.B.) sosiallaşmanı fərd tərəfindən ünsiyyətdə və fəaliyyətdə sosial təcrübənin qavraması və fəaliyyətində yenidən hasil etmə prosesi kimi dəyərləndirilir. Lakin, psixoloji nöqteyi nəzərdən sosiallaşmanın fərd tərəfindən əldə edilmiş sosial təcrübənin sadə, mexaniki əks olunması kimi də qəbul etmək olmaz. Bu təcrübənin əldə edilməsi subyektivdir. Eyni sosial şəraitlər müxtəlif şəxsiyyətlər tərəfindən fərqli qavranırlar və müxtəlif formada yenidən hasil olunurlar. Bu səbəbdən də ayrı ayrı insanlar eyni sosial şəraitlərdən müxtəlif sosial təcrübə əldə edirlər. Cəmiyyət, sosial sistemin yenidən hasil etməsi məqsədi ilə və sosial strukturların qorunması vasitəsi ilə sosial stereotip və standartları formalaşdırmağa can atır. Şəxsiyyət də cəmiyyətə qarşı müxalifətdə olmamaq üçün, bu sosial təcrübəni sosial mühitə daxil olmaq vasitəsi ilə əldə edir. Sosiallaşma prosesi mürəkkəb, dinamik və fərd tərəfindən sosial təcrübənin qavramasını və yenidən hasil etməsini nəzərdə tutur. Özünü təsdiq etmək üçün şagird şəxsi dəyərlər dünyasını seçib qurmalıdır, bilik, savad dünya-

sına qəbul olunmasını həyatı və elmi problemlərin həllinin yaradıcı üsullarını tapmalıdır.

Sosiallaşmanın müvəffəqliyinin bir kriteriyası da şagirdin onun daxil olduğu qrupdan əlavə digər, ətrafda olanlar tərəfindən dəstəklənməsini qeyd etmək olar. Sosiallaşmanın müvəffəqiyyəti onunla da müəyyənləşir ki, şagird öz tələbatını hansı dərəcədə təmin edib davranma variantlarının nə qədər geniş olmasından, tələblərinin təmin edilməsinə yönəlmiş tələbatların təmin edilməsi üçün həyatı şəraitlərin nə dərəcədə müvəffəq olmasından asılıdır.

Şagirdin şəxsiyyət kimi formalaşmasında və mənəvi durumunda əsas vasitə kimi şəxsiyyətlər arası münasibətlər çıxış edir. Münasibətlərin deformasiyası, yəni müəllimlə şagirdin münasibətlərinin pozulması, tərbiyənin sistemsizliyi ya da hissə-hissə tətbiq olunması, şəxsiyyətin sosiallaşma yolunda deformasiyasının əsas səbəbi olur. Sosiallaşma prosesi uşağın ictimai məktəb münasibətlərinə tədricən daxil olmasını və müstəqil, yeni sosial münasibətlərin quraşdırmasını nəzərdə tutur. Uşaqların məktəbdə sosiallaşmasına həm istiqamətlənmiş sosial faktorlar, həm də nəzərdə tutulmayan sosial faktorlar təsir göstərir.

Məktəbdə tərbiyə prosesi iki məsələni həll edir; I-ci sosiallaşma prosesini təşkil edir, II-ci isə mühüm xarici elementlərin təsirini kənarlaşdırır. Məktəblinin sosiallaşması onu əhatə edən insanlarla psixoloji, sosial və mədəni münasibətlərindən əmələ gəlir.

Sosial institutlar sosial məkanda sosiallaşma və inteqrasiya funksiyasını yerinə yetirərək, inteqrasiya prosesinə və ayrı ayrı qrupların sosial mobilliyinə cavabdehdilər. Belə ki, N. Smelzer sosiallaşmanı, insanların təcrübə və sosial rollarına müvafiq sosial göstərişlərin yığılması kimi müəyyən edir. Başqa sözlə, sosiallaşma dəyərlərin geniş dairəsinin, amillərinin, məfhumlarının qavramasını nəzərdə tutur. Bu prosesin mühüm hissəsini təhsil təşkil edir, çünki təhsil müəssisələri biliklərin ötürülməsini təyin edirlər. N. Smelzer təhsili formal bir proses kimi müəyyənləşdirir və bu prosesdə bir insandan və ya bir qrup insanlardan digərlərinə dəyərlər, bilik və bacarıqlar ötürülür. Təhsilin sayəsində mədəni dəyərlər qorunurlar və bir nəsildən digərinə ötürülürlər. Eyni zamanda təhsil yeni texnoloji metodların tətbiqi və mövcud biliklərin yenidən qiymətləndirilməsinin tətbiqi ilə əlaqədar baş verən sosial dəyişikliklərə inam yaradır. Hal-hazırda həyatda baş verən dəyişikliklər bəzi hallarda təhsil sisteminin fəaliyyətində baş verən dəyişikliklərə gətirib çıxarır. Bu da təhsil müəssisələrində gedən proseslərin kompleks tədqiqatının vacibliyini tələb edir. Müasir dövürdə məktəblərin fəaliyyətinə ölkədə effektiv inkişaf edən, şəxsiyyəti və mikrososiumu formalaşdıran qeyri-formal faktorların güclənməsi prosesi təsir etməyə bilməz. Tərbiyə modellərinə ən perspektiv bir model kimi yanaşma, sosial-tərbiyə sistemində təlim-tərbiyə məsələlərinin həllini nəzərdə tutur və məktəbin, cəmiyyətin digər tərbiyə institutlarına inteqrasiyası əsasında unikal potensialının istifadəsində görür. Belə institutların hər birinin fəaliyyəti, məktəbin daxili fəaliyyətinin dəyişməsi ilə yox, onun ölkədə baş verən sosial proseslərə acıqlığı ilə, cəmiyyətin digər elementləri ilə əlaqəsinin aktivləşməsi və pedaqojiləşməsi ilə bağlılığında olmalıdır.

Ümumiyyətlə, məktəblinin sosiallaşması onu əhatə edən insanlarla psixoloji, sosial və mədəni münasibətlərindən əmələ gəlir. Psixoloji münasibətlər bir-birinə emosional dayaq deməkdir. Məktəbli təəssürat və yaxın isti münasibət qurmağı öyrənir. Sosial münasibətlər - məktəbdə, sinifdə rolların müəyyənləşməsi, sosiumla münasibətlərin qurulmasıdır. Məktəbli müxtəlif sosial rolları, onların məzmununu əldə etmək qabiliyyətinə malikdir. Mədəni münasibətlər - mədəniyyətin xüsusiyyətlərindən əmələ gələn məktəbdaxili münasibətlərdir. Şagird ailənin, cəmiyyətin, məktəbin, sinfin qaydalarını və ənənələrini mənimsəyir.

Beləliklə, şagird onun məktəbində və cəmiyyətdə yüksək qiymətləndirilən dəyərləri mənimsəyir. Məktəbdə sosiallaşmanın əsas mexanizmlərini "imitasiya", "identifikasiya" və tədris təşkil edir. İmitasiya şagirdin müəllimlərin davranışını şüurlu və ya süursuz şəkildə oxşar olmağa can atmasını, müəyyən davranış modellərinin mənimsəməsini müəyyən edir. İdentifikasiya uşaqların məktəb davranışını, pedaqoji göstərişləri və dəyərləri özününki kimi qəbul etməsidir. İmitasiya prosesində şagirdin oxşamaq istədiyi nümunə birinci növbədə müəllim olur və bu da, müəllimin ilk növbədə məktəb davranışının modellərinin və üsullarının təklif etməsi ilə izah olunur.

Şagirdlərin sosiallaşmasına təsir edən faktorlara məktəb və məktəbin müəllimlərini aid etmək olar. Onlarla ünsiyyət və qarşılıqlı əlaqə vasitəsi ilə şagirdlərdə dəyər oriyentasiyası genişlənir və differensiallaşır. Beləliklə, sosial təcrübənin bir hissəsini kiçikyaşlı məktəblilər məktəbdə, sinifdə, müəllimlərdə, şagirdlərdə müşahidə etdikləri davranışı təkrar etdikləri zaman əldə edirlər. İmitasiya müəllimlərin səsini, hərəkətlərini və digər xüsusiyyətlərini təqlid etməsində özünü göstərir. İdentifikasiya - ondan ibarətdir ki, uşaq özünü o biri uşağın yerinə qoyur, onun hisslərini, onun başına gələnləri başa düşür. Məktəbli, məktəbdə ona nümayiş edilmiş davranışı əldə edir.

Sosiallaşma yolunda məktəbin rolunu nə qədər artırsaq da, ailə sosiallaşmanın əsasını təşkil edir. Məhz bu səbəbdən şagirdlərin məktəbdə sosiallaşmasını ailədə müvəffəq sosiallaşma işi olmadan aparmaq qeyri-mümkündür və bunların sıx əməkdaşlığı sosiallaşma prosesinə müsbət təsir edir. Məlum məsəlidir ki, ailə kiçik sosial institut kimi, cəmiyyətin kiçik özəyi kimi qəbul edilir. Cəmiyyətin struktur-funksional və normativ sistemlərinə daxil olmaqla ailə öz üzvlərinin davranışını tənzimləyir, onlara xas olan sosial rolları və statusları müəyyən edir. Ailə münasibətləri cəmiyyətdə bərqərar olmuş ictimai münasibətlərlə bilavasitə bağlıdır.

Ailə, cəmiyyətin struktur elementi və kiçik qrupu kimi öz sosiallaşma funksiyasını yerinə yetirərək, şəxsiyyətə qarşı birinci makrososial təsirin keçiricisi kimi, qismən də mədəniyyətin keçiricisi kimi çıxış edir, ikinci isə mikrososial əlaqələrin mühiti kimi çıxış edir. Uşaqlar ailəni sosial dünyanın surəti kimi qəbul edir. Ailə dəyərləri də şagirdlərin sosiallaşmasında böyük rol oynayır. Bu baxımdan şagirdlərin sosiallaşması üzrə işin əhatə dairəsini istər ailə, istərsə də digər sosial insitutular təşkil etdiyindən bu istiqamətdə aparılacaq təlim-tərbiyə işlərinə xüsusi həssaslıqla yanaşılmalı və şagirdlərin sosial dəyərlərə yiyələnmələrdə yaxından iştirak etmək lazımdır.

## ƏDƏBİYYAT

1. **Vahidov F., Agayev T.** *Sosiologiya.* Bakı, 2008.
2. **Мягков И.Ф., Курочкин О. Ю.** *Развитие социального интеллекта умолодежи как фактор государственной безопасности.* Известия Академии педагогических и социальных наук. Москва, 2002 г.
3. **Мясищев В.Н.** *Общественно-педагогическое движение и создание условий для социализации и самореализации детей и подростков.* Воспитание личности:опыт, проблемы, поиски. Москва, 1994 г.
4. **Смелзер Н.** *Социология.* Москва, 1994 г.

# НАПРАВЛЕНИЯ РАБОТЫ ПО СОЦИАЛИЗАЦИИ ШКОЛЬНИКОВ

**проф. Ю.М. Бабанлы**

*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*
yusif.babanlı@sport.edu.az

**Аннотация.** В статье рассматриваются особенности социализации школьников. В процессе социализации учащиеся приобретают внешний опыт и перенимают его. Учащийся приобретает часть своего социального опыта в школе, в классе, при коммуникации с учителями. О социализации, как о положительном процессе, можно говорить в том случае, когда учащийся без напряжения покидает социальные институты с которыми он сотрудничал. Процесс социализации можно считать удовлетворительным только в том случае, когда учащийся принимает за основу своего поведения внешкольные и классные нормативы.

**Ключевые слова:** *учащийся, образование, школа, социальные институты, семья, личность, общество, социализация, социальная роль, воспитание, отношение, психологический подход.*

# AREAS OF WORK ON SOCIALIZATION OF SCHOOLCHILDREN

**prof. Y.M. Babanli**

*Azerbaijan State Academy of Physical Education and Sport*
yusif.babanlı@sport.edu.az

**Annotation.** The article discusses the features of pupils' socialization. In the process of socialization, schoolchildren gain external experience and add it to their own experience. The pupil acquires a part of his social experience at school, in the classroom, and when communicating with teachers. Socialization can be considered a positive process when the pupil leaves the social institutions with which he cooperates without any tension. The process of socialization is satisfactory only if it is accepted by the pupil as the basis for extracurricular and classroom behavior.

**Keywords:** *pupil, education, school, social institutions, family, personality, society, socialization, social role, upbringing, attitude, psychological approach.*